**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2021-ci il üzrə hesabatı**

## 1. Dövlət Sosial Müdafiə Fondu

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların və innovativ yanaşmaların tətbiqi, əmək pensiyaçılarına və əhalinin həssas təbəqələrinə pensiya və müavinətlərin vaxtında verilməsi və onların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri 2021-ci ildə də davam etdirilmişdir.

2021-ci ildə DSMF-nin gəlirləri 5178 milyon manat təşkil etmişdir ki, bu da 2020-ci ilin müvafiq dövri ilə müqayisədə 429 milyon manat və ya 9 faiz çoxdur.




Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2020-ci illə müqayisədə 8 faiz və ya 290,2 milyon manat artaraq 3843,4 milyon manat təşkil etmişdir. Bu vəsaitin 63,5 faizi və ya 2441,2 milyon manatı qeyri-büdcə sektorunun payına düşməklə, 2020-ci ilin müvafiq göstəricisinə nisbətən 11,8 faiz və ya 258,2 milyon manat çox olmuşdur.




Hesabat dövründə büdcədən maliyyələşən təşkilatlardan daxil olmuş məcburi dövlət sosial sığorta haqlarının məbləği 1402,2 milyon manat və ya proqnozlaşdırılan məbləğin 104 faizi qədər olmuşdur.

Sair gəlirlər (maliyyə sanksiyaları, faizlər, sanatoriya-kurort yollayışlarının qismən dəyərinin ödənilməsi, səhvən daxil olmuş vəsaitlərin geri qaytarılması, artıq və səhvən ödənilmiş pensiya və müavinət məbləğlərinin qaytarılması və s.) üzrə daxilolmalar 27,2 milyon manat təşkil etmişdir.

DSMF-nin büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin DSMF-nin gəlirlərində nisbi payı 2018-ci illə müqayisədə 2021-ci ildə 10,4 faiz azalaraq 25,2 faiz təşkil etmişdir ki, bu da

DSMF-nin dövlət büdcəsindən asılılığının azalması və maliyyə dayanıqlığının möhkəmlənməsinin əsas göstəricilərindəndir.

DSMF-nin gəlirlərinin artımı, eləcə də əsassız pensiya və əlillik işlərinin ləğvi nəticəsində əldə edilmiş qənaət hesabına 2021-ci il üçün dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi məqsədilə ayrılan transfertin kassa icrası proqnozlaşdırılan göstəricidən 324,1 milyon manat az icra edilməklə, həmin vəsaitlərin istifadə edilməyərək digər sosial dəstək tədbirlərinin maliyyələşdirilməsinə yönəldilməsi nəticəsində dövlət büdcəsindən tələb edilməmişdir. Görülən tədbirlər nəticəsində 2022-ci ilin əvvəlinə DSMF-nin ehtiyat maliyyə mənbəyi 335 milyon manat artaraq 570 milyon manat təşkil etmişdir.

2021-ci ildə DSMF-nin ümumi xərcləri 4843 milyon manat olmuşdur. Həmin dövrdə əhaliyə ödənişlərin maliyyələşdirilməsi üçün DSMF tərəfindən 4718 milyon manat vəsait xərclənmişdir.




Əhaliyə ödənişlərin tərkibində pensiya xərcləri 4592 milyon manat təşkil etmişdir. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına 126 milyon manat məbləğində müavinət ödənilmişdir ki, bunun da 31,6 faizi əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, 27,2 faizi hamiləliyə və doğuma görə, 24,4 faizi dəfn üçün, 16,8 faizi isə digər müavinətlərin payına düşmüşdür.

Hesabat dövründə DSMF-nin digər xərcləri 125 milyon manat təşkil etmişdir.

2021-ci il pensiyaçıların həm maddi rifahının yaxşılaşdırılması, həm də onlara rahat, əlçatan və şəffaf şəkildə pensiyaların təyinatı istiqamətində islahatların həyata keçirilməsi ilə əlamətdar olmuşdur.

Hesabat ilində ölkə üzrə əmək pensiyaçılarının 707,2 min nəfəri və ya 59,1 faizi yaşa görə, 345,6 min nəfəri və ya 28,9 faizi əlilliyə görə, 144,2 min nəfəri və ya 12 faizi ailə başçısını itirməyə görə pensiya almışdır.

**Əmək pensiyaçılarının sayı və pensiyanın orta aylıq məbləği barədə məlumat**

| Tarix | Yaşa görə | Orta aylıq | Əlilliyə görə | Orta aylıq | ABİ | Orta aylıq | Ümumi | Orta aylıq |
|---|---|---|---|---|---|---|---|---|
| **31.12.2005** | 779472 | 29,49 | 266888 | 32,25 | 135315 | 26,51 | 1181675 | 29,78 |
| **31.12.2006** | 783371 | 40,98 | 275925 | 45,35 | 128730 | 32,56 | 1188026 | 41,09 |
| **31.12.2007** | 798052 | 60,11 | 285629 | 62,73 | 126430 | 43,48 | 1210111 | 58,99 |
| **31.12.2008** | 835844 | 99,39 | 301661 | 94,80 | 137633 | 76,37 | 1275138 | 95,82 |
| **31.12.2009** | 858659 | 104,36 | 311849 | 98,53 | 137924 | 80,11 | 1308432 | 100,41 |
| **31.12.2010** | 831122 | 117,58 | 324745 | 110,74 | 136288 | 89,20 | 1292155 | 112,86 |
| **31.12.2011** | 812771 | 160,10 | 331586 | 126,10 | 133239 | 101,00 | 1277596 | 145,11 |
| **31.12.2012** | 800547 | 168,54 | 338213 | 129,84 | 133376 | 109,15 | 1272136 | 152,03 |
| **31.12.2013** | 791263 | 187,82 | 349095 | 148,40 | 136695 | 126,16 | 1277053 | 170,45 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **31.12.2014** | 785068 | 192,38 | 365750 | 149,43 | 140064 | 130,00 | 1290882 | 173,44 |
| **31.12.2015** | 781238 | 197,62 | 374466 | 150,30 | 144242 | 140,4 | 1299946 | 177,64 |
| **31.12.2016** | 781957 | 213,81 | 383590 | 163,23 | 149682 | 153,43 | 1315229 | 192,19 |
| **31.12.2017** | 780756 | 230,70 | 390851 | 171,40 | 151272 | 163,10 | 1322879 | 205,50 |
| **31.12.2018** | 756136 | 249,25 | 390113 | 184,99 | 149243 | 175,40 | 1295492 | 221,39 |
| **31.12.2019** | 742034 | 291.5 | 383993 | 229.74 | 144532 | 210.21 | 1270559 | 263.59 |
| **31.12.2020** | 716222 | 331.41 | 373809 | 260.90 | 138798 | 263.04 | 1228829 | 302.24 |
| **31.12.2021** | 707233 | 357,97 | 345584 | 290,76 | 144157 | 290,22 | 1196974 | 331,00 |

Qeyd: Əmək pensiyaçılarının sayı nəfərlə, pensiyanın orta aylıq məbləği manatla verilmişdir.

2021-ci ilin 1 yanvar tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi 2020-ci ildə ölkə üzrə orta aylıq nominal əməkhaqqının 11,4 faiz illik artım tempinə və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri 2020-ci ildə ölkə üzrə istehlak qiymətləri indeksinin 2,8 faizlik illik artım səviyyəsinə uyğun indeksləşdirilmişdir. Əmək pensiyalarının indeksləşdirilməsi məqsədilə illik 441,6 milyon manat vəsait xərclənmiş və bu artım 1,14 milyon pensiyaçını əhatə etmişdir.

Görülən tədbirlər nəticəsində əmək pensiyalarının orta aylıq məbləği 2021-ci ilin 1 yanvar tarixinə olan 302,24 manatdan 2022-ci ilin 1 yanvar tarixinə ilkin hesablamalara görə 331 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 331,4 manatdan 358 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 260,9 manatdan 290,8 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 263 manatdan 290,2 manata yüksəlmişdir. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 9 faiz, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği isə 8 faiz artmışdır.

2021-ci il ərzində 22,6 min nəfərə (21 min nəfərə yaşa görə, 1,2 min nəfərə əlilliyə görə, 436 nəfərə isə ailə başçısını itirməyə görə) elektron qaydada əmək pensiyası təyin edilmişdir.

Hesabat dövrü ərzində pensiya sahəsində aparılmış islahatlar çərçivəsində "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 31.1-1-ci maddəsinə əlavələr edilmişdir. Pensiya təyinatından sonra işləmiş və işləməkdə davam edən pensiyaçılara proaktiv xidmətin göstərilməsini nəzərdə tutan bu islahat tədbiri şəxsə hər hansı quruma yaxınlaşmadan və bürokratik çətinliklərlə qarşılaşmadan pensiya təyin edildikdən sonra toplamış olduqları kapitala görə pensiyalarının avtomatlaşdırılmış qaydada yenidən hesablanmasını nəzərdə tutur. 2021-ci ildə pensiya təyin edildikdən sonra azı 6 il işləyən yaşa görə əmək pensiyaçılarının pensiyalarının avtomatlaşdırılmış qaydada yenidən hesablanmasına başlanılmışdır.

2021-ci il ərzində sığortaolunan kimi qeydiyyata alınmış şəxslərin sayı 219,4 min nəfər və ya 5 faiz artaraq, hesabat dövrünün sonuna 4,6 milyon nəfər təşkil etmişdir.

Aparılan mərkəzləşdirmə və inzibati idarəetmənin təkmilləşdirilməsi tədbirlərinin nəticəsi olaraq, fərdi uçot sistemi sağlamlaşdırılmış, vaxtilə sığortaedənlər tərəfindən ödənilmiş və sığotaolunanların (hərbçilər və xüsusi rütbəli şəxslər istisna olmaqla) fərdi hesablarına bərkidilməmiş 1117,3 milyon manat vəsaitdən 2021-ci il ərzində 85 milyon manatı əməktutumlu fəaliyyətin nəticəsi olaraq sığortaolunanların fərdi hesablarına bərkidilmiş və sığortaolunaların fərdi hesablarına işlənilmiş məbləğlər ümumilikdə 92,4 faizə və ya 1032,4 milyon manata çatdırılmışdır. Sığortaolunanlara məcburi dövlət sosial sığorta vəsaitləri hesabına müavinətlərin interaktiv qaydada elektron formada təyin edilməsi və ödənilməsi təmin edilmişdir. Maliyyə əməliyyatlarına nəzarət gücləndirilmiş, sosial ödənişlərin məmur-vətəndaş təması olmadan şəffaf və operativ təyin edilməsi təşkil olunmuşdur.

## 2. İşsizlikdən Sığorta Fondu

2021-ci ildə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 147 milyon manat səviyyəsində olmuşdur ki, bu da 2021-ci ilin təsdiq olunmuş müvafiq göstəricisindən 27 milyon manat və ya 22,5 faiz çoxdur.

İşsizlikdən Sığorta Fondunun (İSF) 2021-ci il üçün ümumi gəlirlərinin icrası 196,8 milyon manat təşkil etmişdir ki, bu da 2021-ci ilin təsdiq olunmuş müvafiq göstəricisindən 39 milyon manat və ya 24,8 faiz çoxdur.

İSF-nin 2021-ci il üzrə xərclərin icrası 130,7 milyon manat təşkil etmişdir ki, bu da 2021-ci ilin təsdiq olunmuş müvafiq göstəricisindən 27,1 milyon və ya 17,2 faiz azdır (qənaət əldə olunmuşdur).

2021-ci ildə İSF-nin vəsaitlərindən işsizliyə görə sığorta ödənişinə 5,2 milyon manat, peşə hazırlığı və əlavə təhsilin təşkilinə 5,2 milyon manat, haqqı ödənilən ictimai işlərin təşkilinə 1,9 milyon manat, özünüməşğulluq fəaliyyətinin təşkilinə 63,9 milyon manat, peşə standart və kvalifikasiyalarının hazırlanmasına 1,6 milyon manat, məşğulluq orqanlarının saxlanılmasına 33,9 milyon manat, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) saxlanılmasına 15 milyon manat, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın təşkilinə 2,6 milyon manat yönəldilmişdir.

2021-ci ildən etibarən İSF-nin büdcəsinin daha səmərəli xərclənilməsi məqsədilə ekonometrik proqnozlaşdırma modeli hazırlanmış və büdcənin, eləcə də satınalmaların aylıq əsasda icrasına nəzarət mexanizmi qurulmuşdur.

## 3. Əmək münasibətləri

***Məşğulluq və işsizlik.*** 2021-ci il dekabrın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 20,4 min nəfər və ya 1,2 faiz artaraq 1704,9 min nəfər olmuş, onlardan 905,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 799,2 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,5 faizi təhsil, 18,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 13 faizi sənaye, 8,1 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,4 faizi tikinti, 6,6 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,8 faizi maliyyə və sığorta fəaliyyəti, 13,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Hesabat dövründə məşğulluq tədbirləri çərçivəsində 77,6 min nəfər münasib işlə təmin edilmiş, 25,2 min nəfər haqqı ödənilən ictimai işlərə, 988 nəfər əmək bazarının tələblərinə cavab verən peşə və ixtisaslar üzrə peşə hazırlığı kurslarına, 16,2 min nəfər özünüməşğulluq proqramına cəlb olunmuş, 3,7 min nəfərə isə işsizlikdən sığorta ödənişi təyin olunmuşdur.

Ölkə üzrə CV hazırlamaqda çətinlik çəkən vətəndaşlara dəstək olmaq məqsədilə 2021-ci il 25 oktyabr tarixindən etibarən “www.cvyarat.az” platforması istifadəyə verilmişdir. “3 addımda CV yarat” şüarı ilə fəaliyyətə başlayan platformadan 2021-ci il 31 dekabr tarixinə qədər 5,2 min vətəndaş qeydiyyatdan keçmiş, onlardan 3,5 min nəfəri öz məlumatlarını tam dolduraraq PDF formatında CV-lərini yükləmişlər.

2021-ci il ərzində Dövlət Məşğulluq Agentliyinin ərazi məşğulluq filiallarına müraciət etmiş 1,9 min şəxsə peşəyönümü məsləhət xidməti göstərilmişdir.

2021-ci il ərzində 16,2 min nəfər (Dünya Bankı nəzərə alınmaqla) işsiz və işaxtaran aztəminatlı şəxslər özünüməşğulluq proqramına cəlb olunmuşdur.

Özünüməşğulluq proqramına cəlb olunmuş 16,2 min nəfər şəxsdən 4,4 min nəfər qadın, 4,3 min nəfər gənc, 1,3 min nəfər əlilliyi olan şəxs, 1,2 min nəfər məcburi köçkün, 1,8 min nəfər şəhid ailəsi üzvü, 116 nəfər cəzaçəkmə yerindən azad olunmuş, 56 nəfər isə ünvanlı dövlət sosial yardımı alan şəxs olmuşdur.

Dövlət Məşğulluq Agentliyi tərəfindən “Postmüharibə dövründə Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçiriləcək işlərə dair Tədbirlər Planı”, eləcə də “Məşğulluq marafonu” üzrə şəhid ailə üzvlərinin, müharibədə xəsarət almış şəxslərin və müharibə

iştirakçılarının məşğulluqlarının təmin etdirilməsi üzrə işlər davam etdirilmişdir. Bunlardan "Postmüharibə dövründə Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçiriləcək işlərə dair Tədbirlər Planı" çərçivəsində 2021-ci il ərzində 13,2 min nəfərlə iş aparılaraq 5,9 min nəfər özünüməşğulluq proqramına, 52 nəfər əməkhaqqının birgə maliyyələşdirilməsinə, 559 nəfər ictimai işlərə cəlb olunmuş, 571 nəfər isə mövcud vakansiyalara əsasən işlərlə təmin olunmuşdur. Məşğulluq marafonu çərçivəsində 602 işəgötürən tərəfindən 3897 vakansiya təqdim edilmiş, 1418 şəxs müvafiq işlə təmin olunmuşdur.

Dövlət Məşğulluq Agentliyi tərəfindən əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi üzrə sosial iş yerlərində işə düzəlmək üçün 1,2 min işsiz və işaxtaran şəxsə göndəriş verilmiş, 491 nəfərlə əmək müqaviləsi bağlanaraq (8 nəfər əlilliyi olan şəxs, 286 nəfər gənc, 128 nəfər 1 (bir) ildən artıq işsiz kimi qeydiyyatda olan şəxs, 160 nəfər qadın olmaqla) işə qəbul edilmişdir. Eyni zamanda, sosial iş yerlərinə 26 şəhid ailəsinə, 185 müharibə iştirakçısı ailəsinə,1 müharibə ilə əlaqədar əlilliyi olan şəxsin ailə üzvünə göndəriş verilmiş, 7 şəhid ailəsi, 45 müharibə iştirakçısı ailəsi, 1 müharibə ilə əlaqədar əlilliyi olan şəxsin ailə üzvü işlə təmin olunmuşdur.

BMT İnkişaf Proqramı ilə birgə həyata keçirilən "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi üzrə isə 148 nəfər müxtəlif əmlaklarla tam təmin olunmuşdur. Habelə, Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İnkişaf Proqramı (UNDP) və Əhali Fondu tərəfindən "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi həyata keçirilir. Layihə çərçivəsində ölkənin Salyan və Masallı rayonlarında 142 nəfər bu kateqoriyadan olan şəxs özünüməşğulluq proqramı üzrə avadanlıq və materiallarla təmin olunmuş, onlar üçün peşə hazırlığı, işaxtarma bacarığı kursları təşkil edilmiş, Bacarıqların İnkişafı və Tədris üzrə Virtual Laboratoriya yaradılmış və istifadəyə verilmiş, 4 saylı DOST mərkəzində İnklüziv İncəsənət Məktəbi fəaliyyətə başlamış, eləcə də hüquqi və psixoloji dəstək həyata keçirilmişdir.

Dünya Bankının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə əməkdaşlığı çərçivəsində "Azərbaycanda Məşğulluğa Dəstək" layihəsi çərçivəsində işsiz və işaxtaran şəxslərin özünüməşğulluğunun təmin edilməsi əsas prioritet kimi müəyyən edilmişdir. Layihəyə müraciət etmiş şəxslər üçün təlimlərə start verilmiş, il ərzində 4,5 min nəfər şəxs təlimləri tamamlamışdır. Layihənin icrasına 2020-ci ildə başlanılmış və 2025-ci ilin sonunda yekunlaşdırılması, bu müddət ərzində 22 min vətəndaşın aktivlə təmin edilməsi nəzərdə tutulumuşdur.

Özünüməşğulluq tədbirlərini dəstəkləyən yerli və beynəlxalq tərəfdaşlarla bu tədbirlərin əhatə dairəsinin genişləndirilməsinə dəstək verən digər layihələr də icra edilmişdir. Belə ki, ötən müddət ərzində Gənclər Fondu ilə birgə icra olunan Gənclərin Dayanıqlı Məşğulluğu Proqramı çərçivəsində "Biznesini yarat" marafonuna start verilmiş, 555 müraciət qəbul edilmiş, müraciəti müsbət dəyərləndirilmiş 127 nəfər şəxs ikinci mərhələyə vəsiqə qazanmışdır. Həmin şəxslərə biznes təlimlər keçilmiş və onlara mentorluq xidməti təqdim edilmişdir. Təlimləri uğurla başa vuran 99 nəfər şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər və ya Gənclər Fondu tərəfindən 5 min manatadək qrantın verilməsi nəzərdə tutulur.

Gənc startapçıların daha çox uğur qazanması üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə birgə "Enterprise Azerbaijan" proqramına 3 qalib startap seçilmiş və onlar müvafiq aktivlərlə təmin olunmuşlar. Mərkəzi Bank, Azərbaycan Banklar Assosiasiyası və ölkədə fəaliyyət göstərən banklar ilə birlikdə aparılan "Özünüməşğulluğa dəstək" layihəsi çərçivəsində isə müxtəlif şəhər və rayonlarda yaşayan işsiz şəxslərin kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə əmlaklarla təmin edilməsi nəzərdə tutulmuş və bu günədək layihə çərçivəsində 511 nəfər müvafiq aktivlərlə təmin olunmuşdur.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə hesabat dövründə adı çəkilən qurumun vəsaiti hesabına kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə 27 nəfər işsiz şəxs müxtəlif əmlaklarla təmin edilmişdir.

Kəndlərdə sahibkarlığın inkişafı məqsədilə “Odlar Yurdu” Gənclər İctimai Birliyi və KOBİA ilə birgə icra olunan “Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı” layihəsinin isə benefisiarları müəyyənləşdirilmiş, həmin şəxslər üçün təlimlər keçirilmiş və 14 nəfərə turizm zərfi üzrə əmlaklar təqdim edilmişdir. Kənd Təsərrüfatı Nazirliyi ilə birgə icra olunan “Baramaçılıq” layihəsi çərçivəsində 20 nəfər şəxs müxtəlif əmlaklarla təmin olunmuşdur.

Həmçinin, Azərbaycana Birgə Yardım Təşkilatı (UAFA) ilə birgə həyata keçirilən ölkə qadınlarını səlahiyyətləndirməklə onların özünüməşğulluq proqramına cəlb olunmasına və daha sonra sahibkarlara çevrilməsinə dəstək olan “Məktəbim” layihəsi üzrə birinci mərhələdə seçilmiş vətəndaşlar üçün təlimlərə start verilmiş, təlimləri bitirib uğurlu biznes planlarını təqdim etmiş 16 qadın aktivlərlə təmin olunmuş, ümumilikdə isə 50 nəfərə müvafiq əmlakların verilməsi nəzərdə tutulmuşdur.

2021-ci il ərzində 5 əmək yarmarkası təşkil edilmiş və bu tədbirlərə 74 müəssisə və təşkilat tərəfindən 1,3 min boş (vakant) iş yerləri təqdim olunmuşdur.

“Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında” 2020-ci il 29 dekabr tarixli 236-VIQ nömrəli Azərbaycan Respublikası Qanununa əsasən 2021-ci il yanvarın 1-dən əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği ölkə üzrə 196 manat, əmək qabiliyyətli əhali üçün 207 manat, pensiyaçılar üçün 162 manat, uşaqlar üçün 175 manat məbləğində müəyyən edilmişdir.

**2021-ci il üçün yaşayış minimumu**




2021-ci ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqısı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,4 faiz artaraq 732,1 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

**2015-2021-ci illərdə minimum əməkhaqqı və bir nəfərə düşən orta aylıq əməkhaqqı**



2021-ci il ərzində müxtəlif orqanlardan daxil olmuş materialların və vətəndaş müraciətlərinin araşdırılması zamanı 1508 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Törədilmiş inzibati xətaya görə Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) vəzifəli şəxsləri və məhkəmə orqanları tərəfindən vəzifəli və hüquqi şəxslər barəsində inzibati qərarlar qəbul edilərək 2,8 milyon manat məbləğində inzibati qaydada cərimə tətbiq olunmuşdur. Tətbiq olunmuş cərimələrdən 1 milyon manatının dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

DƏMX tərəfindən görülmüş tədbirlərin nəticəsi olaraq vətəndaşlara ödənilməsi gecikdirilmiş 1,3 milyon manat məbləğində vəsaitin, onlardan 98,5 faizi əməkhaqqı, 0,9 faizi zərərə görə ödənc, 0,6 faizi sosial müavinət və kompensasiya olmaqla ödənilməsi təmin edilmişdir.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 34 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, bu işçilər barəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

İstehsalatla əlaqəli sayılmış 301 bədbəxt hadisənin təhqiqatı aparılmış, 15-i qrup halında olan bu hadisələr nəticəsində 51 nəfər vəfat etmiş, 276 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır. İstehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqatı nəticəsində 327 nəfər zərərçəkmiş şəxsə "İZ" (istehsalat zədəsi) formalı aktın verilməsi təmin olunmuşdur. Aparılmış təhqiqatların nəticəsi olaraq işəgötürənlərə əməyin mühafizəsi tələblərinin təmin edilməsi ilə bağlı 1199 göstəriş verilmişdir.

2021-ci il ərzində DƏMX-ə daxil olmuş vətəndaş müraciətlərinə baxılması zamanı işəgötürənlər tərəfindən 4 halda 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsi faktı aşkar edilmiş və bu faktlarla əlaqədar müvafiq tədbirlər görülmüşdür.

Hesabat dövründə DƏMX-də İSO təşkilatının (Beynəlxalq Standartlaşdırma Təşkilatı) İSO 37001 standartının (anti-korrupsiya siyasəti və korrupsiyaya qarşı mübarizə idarəetmə sistemi) tətbiqi üzrə tədbirlər görülmüş, ilin sonunda bütün işlər yekunlaşdırılaraq sertifikat əldə edilmişdir.

"Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli və "Dövlət orqanlarında və qurumlarında əmək haqqı sistemlərinin təkmilləşdirilməsi ilə bağlı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 avqust tarixli 506s nömrəli sərəncamlarının icrası olaraq 2022-ci ilin 1 yanvar tarixindən minimum əmək haqqının 300 manat müəyyən edilməsi ilə əlaqədar sərəncam layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin "Minimum aylıq əməkhaqqının məbləğinin artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2021-ci il 17 dekabr tarixli 3051 nömrəli Sərəncamı ilə qüvvəyə minmişdir.

"Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən həmin müəssisələrin direktor və direktor müavinlərinin, habelə gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin əməkhaqlarının artırılması haqqında" sərəncam layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 dekabr tarixli 3053 nömrəli Sərəncamı ilə qüvvəyə minmişdir.

"Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən gənclərin çağırışaqədərki hazırlıq və fiziki tərbiyə rəhbərlərinin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında" sərəncam layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 dekabr tarixli 3054 nömrəli Sərəncamı ilə qüvvəyə minmişdir.

"Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" sərəncam layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 dekabr tarixli 3052 nömrəli Sərəncamı ilə qüvvəyə minmişdir.

## 4. Sosial müdafiə və sosial təminat

***Ünvanlı Dövlət Sosial Yardımı.*** Hesabat dövründə Ünvanlı Dövlət Sosial Yardımı (ÜDSY) alan ailələrin sayı 47 min ailə və ya 202 min ailə üzvü olmuşdur.

Bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği ümumilikdə sosial yardım alan ailələr üzrə 280 manat təşkil etmişdir. Bu göstərici isə 2020-ci illə müqayisədə 17 faiz çoxdur.

"Azərbaycan Respublikasının ərazisində elan edilmiş hərbi vəziyyətlə əlaqədar aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi prosedurunun sadələşdirilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 oktyabr tarixli 432 nömrəli Qərarına uyğun olaraq, hərbi vəziyyət müddətində Gəncə və Naftalan şəhərlərində, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən və Gədəbəy rayonlarında ÜDSY alınması üçün "Ünvanlı yardım" (VEMTAS) altsisteminə müraciət etmiş 2271 ailəyə maddi-məişət şəraitinin müayinəsi aparılmadan avtomatlaşdırılmış qaydada təyinat verilmişdir.

"Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli Sərəncamına əsasən ölkə üzrə 2021-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 (yüz) manat məbləğində birdəfəlik maddi yardımın ödənilməsi təmin edilmişdir. Bu məqsədlə 4,5 milyon manat vəsait istifadə edilmişdir.

ÜDSY təyin edilməsi məqsədilə 2022-ci il üçün ehtiyac meyarının həddi 2021-ci ildəki 170 manatdan 17,6 faiz və ya 30 manat artırılaraq 200 manat məbləğində müəyyən edilmişdir.

***Sosial müavinətlər və təqaüdlər.*** Hesabat ili ərzində operativ məlumata əsasən DSMF tərəfindən 383 min nəfərə və ya əhalinin 3,8 faizinə aylıq, 83 min nəfərə və ya əhalinin 0,8 faizinə birdəfəlik xarakterli olmaqla, ümumilikdə 466 min nəfərə və ya əhalinin 4,6 faizinə sosial müavinət, 286 min nəfərə və ya əhalinin 2,8 faizinə isə Azərbaycan Respublikası Prezidentinin təqaüdü ödənilmişdir. Ümumilikdə 120 min nəfərə elektron qaydada sosial müavinət və təqaüd təyin olunmuşdur.

2021-ci ildə sosial müdafiə sahəsində bir sıra qanunvericilik aktlarına edilən əlavə və dəyişikliklər, habelə qəbul edilən yeni normativ hüquqi aktlar dayanıqlı sosial müdafiəyə nail olmaq üçün milli səviyyədə görülən önəmli tədbirlərdəndir. Qeyd etmək lazımdır ki, son dövrlər davamlı şəkildə reallaşdırılan çoxşaxəli sosial zərflərin növbəti təzahürü olaraq, 2021-ci ildə sosial müdafiə sistemində xüsusi önəm kəsb edən sosial müavinət və Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin məbləğlərində artımlar təsdiq edilmiş və 2022-ci ilin yanvarın 1-dən qüvvəyə minmişdir. Belə ki, yaşa görə müavinətin məbləği 38,5 faiz artırılaraq 180 manata, 18 yaşından yuxarı birinci dərəcə əlilliyi olan şəxslərə müavinətin məbləği 46,7 faiz artırılaraq 220 manata, ikinci dərəcə əlilliyi olan şəxslərə müavinətin məbləği 38,5 faiz artırılaraq 180 manata, üçüncü dərəcə əlilliyi olan şəxslərə müavinətin məbləği 9,1 faiz artırılaraq 120 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinətin məbləği 33,3 faiz artırılaraq 200 manata, ailə başçısını itirməyə görə müavinətin məbləği 25 faiz artırılaraq 100 manata, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinətin məbləği 20 faiz artırılaraq 120 manata, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinətin məbləği 20 faiz artırılaraq 120 manata, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinətin məbləği 27 faiz artırılaraq 70 manata, övladlığa götürülən uşağa (sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar istisna olmaqla) görə müavinətin məbləği 25 faiz artırılaraq 200 manata, övladlığa götürülən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinətin məbləği 25 faiz artırılaraq 600 manata, beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği 27 faiz artırılaraq 70 manata, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə birdəfəlik müavinətin məbləği 20 faiz artırılaraq 1200 manata, eyni zamanda həm dövlət büdcəsi, həm də məcburi dövlət sosial sığorta hesabına ödənilən uşağın anadan olmasına görə müavinətin məbləği 50 faiz artırılaraq 300 manata, dəfn üçün müavinətin məbləği isə 16,7 faiz artırılaraq 350 manata çatdırılmışdır. Həmçinin, "Xalq" fəxri adlarına görə Azərbaycan Respublikası Prezidentinin

təqaüdünün məbləği 20 faiz artırılaraq 180 manata, "Əməkdar" fəxri adlarına görə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği 20 faiz artırılaraq 120 manata, I dərəcə əlilliyi olan şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği 60 faiz artırılaraq 80 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği 60 faiz artırılaraq 80 manata, əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, işləməyən, əmək pensiyası hüququ olan və elmlər doktoru elmi dərəcəsi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği 50 faiz artırılaraq 300 manata, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslərə isə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği 67 faiz artırılaraq 200 manata çatdırılmışdır.

Bununla yanaşı, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc əvəzinə dövlət büdcəsinin vəsaiti hesabına verilən aylıq müavinətin məbləğləri də artırılmışdır. 2022-ci ildən peşə əmək qabiliyyəti itirilməsinə görə müavinətin məbləği minimum aylıq əməkhaqqının (300 manat) əmək qabiliyyətinin itirilmə faizi məbləğində (33 manatdan az olmayaraq), həlak olmaya görə minimum aylıq əməkhaqqı məbləğində müəyyən edilmişdir.

***Sosial xidmət.*** Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə, şəhid ailələrinə, həmçinin sosial cəhətdən həssas təbəqədən olan digər ailələrə 2021-ci ildə 3000-dək mənzil təqdim edilmişdir.

2021-ci il ərzində növbədə olan imtiyazlı şəxslərdən 164 nəfəri avtomobillə təmin olunmuşdur.

Hesabat dövründə əlilliyi olan şəxslərə 4,5 min ədəd sanatoriya-kurort yollayışı verilmişdir. Sosial müdafiəyə daha çox ehtiyacı olan 1031 nəfər əlilliyi olan şəxsə reabilitasiya və sosial-məişət problemlərinin həllinə köməklik məqsədilə birdəfəlik maddi yardım göstərilmişdir. Həmçinin, 20 Yanvar şəhidi ailə üzvü və həmin hadisələr ilə əlaqədar əlilliyi olan 367 nəfərə, Çernobıl Atom Elektrik Stansiyasında qəzanın 35-ci ildönümü ilə əlaqədar sosial müdafiəyə daha çox ehtiyacı olan 500 nəfər əlilliyi olan şəxsə birdəfəlik pul yardımı edilmişdir. 3 Dekabr "Beynəlxalq əlilliyi olan şəxslər günü" ilə əlaqədar 7,5 min nəfər sosial müdafiəyə xüsusi ehtiyacı olan əlilliyi olan şəxsə maddi yardım olunmuşdur.

Hesabat dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi (SXA) tərəfindən 9 mindən artıq sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara və əlilliyi olan şəxslərə evdə sosial xidmət göstərilmişdir. Onlardan 8,9 min nəfəri ahıl və tənha yaşayan əlilliyi olan şəxslər olmuşdur.

2021-ci il ərzində SXA-nın tabeliyində olan sosial xidmət müəssisələrində ümumilikdə 2,2 min nəfərə sosial xidmət göstərilmişdir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində 368 uşağa, ahıl şəxslər üçün sosial xidmət müəssisəsində 245 nəfərə, psixonevroloji sosial xidmət müəssisələrində 538 nəfərə, həssas əhali qruplarından olan şəxslər üçün sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində 332 nəfərə xidmət göstərilmişdir.

300 əlilliyi olan gənc müvafiq sosial xidmət müəssisəsində peşə-əmək reabilitasiyasına, 354 nəfər əlilliyi olan şəxs Paralimpiya İdman Kompleksində idmana cəlb edilmişdir. İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi tərəfindən 70 şəxsə hüquqi, psixoloji və digər xidmətlər göstərilmişdir.

***Övladlığagötürmə.*** 2021-ci ildə 114 uşaq (56 oğlan, 58 qız) övladlığa verilmişdir ki, onlardan hər biri Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürülmüşdür. Övladlığa götürülmüş uşaqlardan 26 uşaq müəssisədən, 63 uşaq yaxın qohumları tərəfindən, 19 uşaq ögey ata-ana tərəfindən və 6 uşaq isə valideynlərarası razılıq əsasında övladlığa götürülənlərdir.

Uçota alınmış valideyn himayəsindən məhrum olmuş uşaqların ümumi sayı 1563 nəfər (944 oğlan, 619 qız) təşkil etmişdir ki, onlardan 1248-i sağlam, 315-i isə sağlamlıq imkanları

məhdud uşaqlar olmuşdur. Hesabat dövründə isə həmin müəssisələrdə valideyn himayəsindən məhrum olmuş 362 uşaq (218 oğlan, 144 qız) uçota alınmış, onlardan 306-sı sağlam, 56-sı isə sağlamlıq imkanları məhdud uşaqlar olmuşdur.

Reinteqrasiya tədbirləri nəticəsində 89 uşaq ailələrinə qaytarılmışdır.

***Əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya.*** 2021-ci ildə dövlət tibb müəssisələri tərəfindən rəsmiləşdirilmiş göndərişlər əsasında 18,5 min nəfər üzrə ilkin əlillik təyinatı aparılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 dəfə çoxdur. Onlardan, I dərəcə ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 1,6 min nəfər, II dərəcə ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 7,1 min nəfər, III dərəcə ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı isə 5,3 min nəfər olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq I dərəcə üzrə 15 faiz azdır, II dərəcə üzrə 22 faiz çoxdur, III dərəcə üzrə isə 43 faiz çoxdur. Eyni zamanda, onlardan 4,5 min nəfəri ilkin sağlamlıq imkanları məhdud uşaqlardır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz çoxdur.

Hesabat dövründə dövlət tibb müəssisələri tərəfindən rəsmiləşdirilmiş göndərişlər əsasında 43,4 min nəfər üzrə təkrar əlillik təyinatı aparılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə çoxdur.

Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin hüquqlarının təminatı və qorunması dövlətin əsas prioritet fəaliyyət istiqamətlərindən biridir. Bu məqsədlə hər il dövlət tərəfindən “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əlilliyi olan şəxslərin hüquqlarının dövlət monitorinqi aparılır. Monitorinq tədbirləri zamanı xüsusi diqqət 44 günlük Vətən müharibəsi dövründə müxtəlif dərəcəli xəsarətlər alaraq əlilliyi müəyyən edilmiş Vətən müharibəsi iştirakçılarına verilmişdir. Burada həm hərbçilər, həm də mülki əhalidən olan zərərçəkmiş vətəndaşlarla bağlı 2021-ci il ərzində görülmüş işlər, qeyd olunan kateqoriyadan olan əlilliyi olan şəxslərin sosial müdafiəsinin təmin olunması, maddi-məişət şəraitinin yaxşılaşdırılması, müalicə, reabilitasiya, sosial təminat, məşğulluq və s. sahələrdə görülmüş işlərin icmalına xüsusi diqqət ayrılmışdır.

2021-ci ildə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyindəki 14 Reabilitasiya Mərkəzi, o cümlədən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi və 1 və 2 saylı Uşaq Reabilitasiya Mərkəzlərində 9,3 mindən artıq şəxs (5,6 min nəfər stasionar, 931 nəfər ambulator, 829 nəfər icma əsaslı, 682 nəfər onlayn, 1,3 min nəfər sosial-psixoloji dəstək layihəsi üzrə) reabilitasiya xidməti almışdır.

Hesabat ilində əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya infrastrukturunun təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində fəaliyyət gücləndirilmiş, bu məqsədlə 2021-ci il ərzində Şağan Reabilitasiya Pansionatı və Mərdəkan Reabilitasiya Pansionatı əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Uşaqlar üçün 25 çarpayılıq Şəmkir Reabilitasiya Mərkəzində əsaslı təmir işləri başa çatmaq üzrədir və 2022-ci ildə istifadəyə verilməsi planlaşdırılır. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq hesabat ilində Qəbələ rayonunda uşaqlar üçün 25 çarpayılıq reabilitasiya mərkəzi istifadəyə verilmişdir.

Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi və onun struktur bölmələri tərəfindən 8,7 min nəfər əlilliyi olan şəxs (onlardan, 962 nəfər I Qarabağ müharibəsi ilə əlaqədar əlilliyi olan şəxs, 235 nəfər Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan şəxs və 2,5 min nəfər sağlamlıq imkanları məhdud uşaq) 48 min ədəd reabilitasiya vasitəsi ilə təmin edilmişdir.

2021-ci ildə Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi və onun struktur bölmələri tərəfindən əlilliyi olan şəxslərə 955 ədəd mühərrikli təkərli oturacaq, 1425 ədəd mexaniki təkərli oturacaq (açıq məkan üçün, qapalı məkan üçün və sanitar-təchizatlı), 1813 ədəd eşitmə aparatı, 1895 ədəd aşağı və yuxarı ətraf protezi, 449 ədəd süd vəzi protezi, 151 ədəd bel və boyun nahiyəsi üçün korset, 2221 ədəd protez ayaqqabı, 6812 ədəd ortopedik ayaqqabı, 851 ədəd dördayaqlı dayaq vasitəsi, 2440 ədəd qoltuqaltı və dirsəkaltı ağac, 2414 ədəd əsa verilmiş və 708 ədəd protez-ortopedik məmulat təmir olunmuşdur.

Ötən dövr ərzində 6 mindən artıq yaralanmış hərbçi evində və ya xəstəxanada ziyarət edilmiş, onların əksəriyyəti üzrə xəsarətlər foto və videoçəkilişlərlə qeyd olunaraq aktlaşdırılmış, geridönməz hallar (amputasiya və s.) üzrə xüsusi siyahı Müdafiə Nazirliyinin hərbi-həkim komissiyasına təqdim edilmiş və şəhadətləndirilmələri üzrə işlər aparılmışdır. Şəhadətləndirilən 3729 nəfərdən 2515 nəfərə əlillik təyinatı aparılmış, 457 nəfərə imtina qərarı verilmiş, ətrafları amputasiya olunmuş 191 nəfərin protez ehtiyacları müəyyənləşdirilmiş, 184 nəfər (193 ədəd) yüksək texnologiyalı protezlə təmin edilmiş və 3 nəfərin yüksək texnologiyalı protezlərlə təminatı məqsədilə ölçülər götürülmüşdür.

DTSERA-nın tabeliyində olan Reabilitasiya Mərkəzlərində kliniki psixoloqlar tərəfindən müharibədə iştirak edən yaralı və sağlamlıq imkanlarını itirmiş hərbçilərə, cəbhə və cəbhəyanı bölgələrdə yaşayan əlilliyi olan şəxslərə və şəhid ailələrinə sosial-psixoloji yardım göstərilmişdir. Hesabat dövründə 1,3 min zərərçəkmiş uzun müddətli sosial-psixoloji yardıma cəlb edilmişdir.

## 5. Şəhid ailəsi üzvlərinə və müharibə iştirakçılarına sosial dəstək tədbirləri

Postmüharibə dövründə zərər çəkmiş şəxslərə dəymiş zərərin bərpası və onların cəmiyyətə inteqrasiyası istiqamətində sosial dəstək tədbirləri ilə əhatə edilməsi üçün Vətən müharibəsi şəhidlərinin və itkin düşmüş hərbçilərin ailələri, müharibədə yaralanmış hərbçilər, erməni terrorundan zərər çəkənlər və müharibə iştirakçıları əsas hədəf qrupları kimi müəyyən edilmiş və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq sosial dəstək tədbirləri davam etdirilmişdir. Belə ki:

- Hesabat dövründə şəhid ailəsi üzvləri və müharibə iştirakçılarının hüquqları, sosial dəstək tədbirləri ilə bağlı məlumatlılığın artırılması üçün Nazirliyin saytında (sosial.gov.az) bölmə yaradılmış, onların sosial hüquqları, güzəştləri, göstərilən dəstəklə (ödəniş təyinatları, sosial-psixoloji xidmətlər, məşğulluq və s.) bağlı KİV-də 950-dək press-reliz yayımlanmış, müsahibələr verilmiş, sorğular (o cümlədən sosial şəbəkələrdə) gündəlik cavablandırılmış və proses hazırda da davam edir.
- Sosial mediada çətin maddi durumu barədə məlumat paylaşılanlarla ünvanlarında görüşlər keçirilmiş, onlara dəstək tədbirləri barədə ictimaiyyət məlumatlandırılmışdır.

Postmüharibə dövründə 45 min şəxs 50 min sosial dəstək tədbiri ilə əhatə olunmuşdur. Belə ki:

- 3021 şəhidin (o cümlədən 86 mülki şəhid) 7942 ailə üzvünə 15841 sosial ödəniş (7683 Prezident təqaüdü, 5576 sosial müavinət, 2582 pensiya) təyin edilmiş və proses hazırda davam etməkdədir.
- 2515 müharibə ilə əlaqədar əlilliyi olan şəxsə 5030 sosial ödəniş təyin edilmişdir.
- 12832 yaralı hərbçi ailəsi ziyarət edilmiş, sosial məişət və tibbi ehtiyacları öyrənilmişdir.
- 2515 nəfərə əlillik təyinatı aparılmışdır.
- 5930 nəfər özünüməşğulluq proqramına cəlb edilmişdir.
- 2731 nəfər işlə təmin olunmuşdur.
- Məşğulluq marafonu çərçivəsində 602 işəgötürən tərəfindən 3897 vakansiya təqdim edilmiş, 1418 şəxs müvafiq işlə təmin olunmuşdur.
- Bütün mülki şəhidlərin ailə üzvlərinə (220 nəfərə 465 ödəniş) sosial ödəniş təyinatları yekunlaşdırılmışdır.
- 2021-ci ildə 3000-dək mənzil sosial cəhətdən həssas təbəqədən olan ailələrə verilmişdir.
- Hesabat dövründə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 164 avtomobil təqdim edilmişdir.
- 5000 nəfər şəxslə psixokorreksiya işləri aparılmış, onlayn psixoloji xidmət göstərilmişdir (1606 zəng).
- Reabilitasiya müəssisələrində 1300 nəfərə reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilmişdir.

- 184 hərbçi yüksək texnologiyalı protezlə təmin edilmişdir. Əksəriyyəti müharibədə xəsarət almış şəxslər olmaqla 955 nəfərə mühərrikli təkərli oturacaqlar verilmiş, həmçinin 1197 nəfər 12948 ədəd reabilitasiya vasitəsi ilə təmin edilmişdir.

Vahid əlaqələndirmə mərkəzləri (VƏM)

- Ölkə başçısının 25.06.2021 tarixli Fərmanı ilə yaradılmış VƏM şəhid ailəsi üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ şəkildə icrasını təmin edir.
- VƏM-lərdə xidmətlər 6-sı mərkəzi icra hakimiyyəti orqanı (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti), 33-ü yerli icra hakimiyyəti orqanı olmaqla, ümumilikdə 39 qurum tərəfindən 26 istiqamətdə “bir pəncərə” prinsipi əsasında həyata keçirilir. Mərkəzlər Nazirlik tərəfindən xidmətlərin göstərilməsi üçün zəruri olan bütün texniki kommunikasiya və informasiya resursları ilə təmin olunmuşdur.
- VƏM-lər 23.08.2021 tarixindən DOST mərkəzlərində, həmçinin 24.12.2021 tarixindən Dövlət Sosial Müdafiə Fondunun regional ərazi filiallarında (Masallı, Ucar və Gəncə) fəaliyyətə başlamışdır.
- VƏM-lər vasitəsilə 6500 şəxsə (527 müraciət Qaynar xətt) xidmətlər göstərilmişdir.

Digər tədbirlər

- 01.01.2021 tarixindən şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, Millli Qəhrəmanların Prezident təqaüdləri artırılıb, Vətən Müharibəsi qəhrəmanı təqaüdü təsis edilmişdir.
- 01.01.2022 tarixindən Vətən müharibəsi iştirakçılarına “Müharibə veteranı” adının verilməsi və onlara Prezident təqaüdünün təyin edilməsi məqsədilə ölkə başçısı tərəfindən 29.12.2021 tarixli Sərəncam imzalanmışdır.
- 1991-1997-ci illərdə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar hərbi xidmətdə olarkən xəsarət alması nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə və onların ailə üzvlərinə birdəfəlik ödəmənin verilməsi haqqında 23.12.2021 tarixli Fərman imzalanmışdır. Fərmana əsasən 02.08.1997 tarixinədək ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanları əməkdaşlarına, onlardan vəfat etmiş şəxslərin isə vərəsələrinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik ödəmənin (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) verilməsi nəzərdə tutulur.

## 6. İnstitutsional inkişaf

***Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) konsepsiyası.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2021-ci il 30 mart tarixində 4 saylı Bakı DOST, 2021-ci il 14 iyul tarixində isə Abşeron DOST mərkəzlərinin inzibati binalarının açılış mərasimi olmuşdur. Bununla da fəaliyyət göstərən DOST mərkəzlərinin sayı 5-ə çatdırılmışdır. 2021-ci il 1 oktyabr tarixindən Bakı şəhəri üzrə vətəndaşlara xidmətlərin göstərilməsi ilə bağlı qeydiyyat məhdudiyyəti aradan qaldırılmışdır. Hal-hazırda fəaliyyət göstərən 5 “DOST” mərkəzi Bakı şəhəri və Abşeron rayonu üzrə ümumilikdə 2,1 milyon vətəndaşa xidmət göstərir ki, onların 450 minə yaxın hissəsi birbaşa sosial müdafiəyə cəlb olunmuş əhalidir.

2021-ci il 22 oktyabr tarixində Bakı şəhərində birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan geniş, çoxşaxəli fəaliyyət sahələrini əhatə edən “DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi”nin açılış mərasimi olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanına əsasən “DOST” mərkəzlərində “Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri” (VƏM) yaradılmış və 6-sı mərkəzi icra hakimiyyəti orqanı (Əmək

və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti), 33-ü yerli icra hakimiyyəti orqanı olmaqla, ümumilikdə 39 qurum tərəfindən 26 xidmətin "DOST" mərkəzləri vasitəsilə göstərilməsi təmin olunmuşdur. 2021-ci il 23 avqust tarixindən "DOST" mərkəzlərində VƏM pəncərələri xidmətə başlamışdır.

Vahid Əlaqələndirmə Mərkəzləri ilkin olaraq 2021-ci il 23 avqust tarixindən etibarən Bakı şəhəri üzrə 1, 2, 3 və 4 saylı DOST mərkəzlərində, 4 noyabr tarixindən etibarən Abşeron rayonunda yerləşən 6 saylı DOST mərkəzində fəaliyyətə başlamışdır. Ötən ilin 24 dekabr tarixində Gəncə şəhəri, Ucar və Masallı rayonlarında regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyətə başlamışdır. Ümumilikdə, Vahid Əlaqələndirmə Mərkəzlərinin fəaliyyəti Bakı şəhəri üzrə 12 rayon, Sumqayıt şəhəri, Abşeron rayonu və regionlar üzrə 19 rayonu əhatə edir.

VƏM-lə əlaqədar xidmətlər də daxil olmaqla "DOST" mərkəzlərində 153 növ xidmətin göstərilməsi təmin edilir.

İşğaldan azad edilmiş Dağlıq Qarabağ və ətraf 7 rayonda yaşayan (o cümlədən, oraya qayıdacaq) ölkə vətəndaşları üçün müasir texnologiya və idarəetmə imkanlarından istifadə etməklə qabaqcıl standartlara uyğun sosial müdafiə, sosial təminat və məşğulluq xidmətlərinə əlçatanlığın təmin edilməsi məqsədilə DOST Agentliyinin missiyasına uyğun olaraq, "Zəngəzur və Qarabağ DOST" proqramı hazırlanmışdır. 2022-ci ildə Şuşa şəhərində ilk "DOST" xüsusi mərkəzinin (filial) açılması planlaşdırılır.

2021-ci il ərzində "DOST" mərkəzləri tərəfindən 411 min şəxsə birbaşa, 5,6 min nəfərə isə elektron müraciət əsasında xidmətlər göstərilmişdir.

"DOST" mərkəzlərinə edilmiş müraciətlərin 67,5 faizi sosial müdafiə, 13,4 faizi məşğulluq, 14,8 faizi əlillik, 0,7 faizi əmək münasibətləri, 2,2 faizi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müxtəlif fəaliyyət istiqamətlərinə dair arayışların verilməsi və 1,4 faizi VƏM (Vahid Əlaqələndirmə Mərkəzi) üzrə xidmətlər olmuşdur.

"DOST" mərkəzlərinə müraciət edənlər arasında aparılmış sorğunun nəticələrinə əsasən vətəndaşların 2021-ci il üzrə məmnunluq səviyyəsi 98 faiz təşkil etmişdir.

"DOST" mərkəzlərində könüllü olaraq çalışmaq istəyən vətəndaşlar üçün imkanlar yaradılmış, bu məqsədlə "Gənc DOST", "Gümüşü DOST" və "Virtual DOST" proqramları istifadəyə verilmişdir. Bu proqramlara hesabat dövrü ərzində 27,2 min nəfər könüllü müraciət etmiş, onlardan 1,1 min nəfəri "DOST" mərkəzlərində könüllü fəaliyyətinə cəlb edilmişdir.